Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi
Milli Azərbaycan Tarixi Muzeyi

# QARABAĞ
# SİKKƏ DƏFİNƏLƏRİ

KATALOQ

Bakı – 2024

***Milli Azərbaycan Tarixi Muzeyinin***
***Elmi Şurasının qərarı ilə nəşr olunur***

***Elmi redaktor:*** akademik Nailə Vəlixanlı

***Mətnin müəllifi:*** tarix üzrə fəlsəfə doktoru Aygün Məmmədova

***Dizayner:*** Lalə Məmmədova

**Məmmədova A.M. Qarabağ zərbxanaları.** Bakı: Aspoliqraf, 2024, 40 s.

*Kataloq Qarabağ ərazisində həm tək sayda, həm də dəfinələr olaraq aşkarlanan, müxtəlif tarixi dövrlərə aid sikkələr haqqındakı məlumat əsasında tərtib edilmişdir. Hazırda belə sikkələrin analoqları Milli Azərbaycan Tarixi Muzeyinin Numizmatika Fondunda qorunur.*

*Kataloqda həm yerli, həm də xarici zərbxanaların istehsalı olan sikkələrin (qızıl, gümüş və mis) tapılma ili və yeri, zərb dövrü, çəkisi və s. qeyd edilmişdir. Azərbaycanın yerli pul təsərrüfatı və xarici ticarət əlaqələrində iştirak edən belə sikkələr dövrümüzədək gəlib çatmış mühüm faktlardır.*

*Kataloq tarixçilər, numizmatlar, topoqraflar, sənətşünaslar və digər tədqiqatçılar üçün nəzərdə tutulmuşdur.*

*Kataloqdakı sikkələrin fotoları orijinaldan fərqli olaraq böyüdülmüş şəkildə verilmiş, üzərindəki yazıların isə Azərbaycan dilində tərcüməsi təqdim edilmişdir.*

# Ön söz

Azərbaycanda aşkarlanan numizmatik faktlar – sikkələr onun zəngin numizmatik irsinin bariz göstəricisidir. Hazırkı dövrədək bu tapıntıların tədqiqi, təbliği və qorunması sayəsində milli tariximizlə əlaqədar bir sıra yeni və doğru qənaətlər əldə edilib.

27 sentyabr 2020-ci ildə Azərbaycanın başladığı uğurlu əks-hücum əməliyyatı nəticəsində 44 gün ərzində Qarabağın Füzuli, Şuşa, Ağdam və digər şəhərləri ilə yanaşı digər yerlər də işğaldan azad edilmişdir.

Təqdim etdiyimiz kataloqa Qarabağ ərazisində aşkarlanan yerli və xarici sikkələr daxil edilmişdir (e.ə. III – b.e. XIX əsrləri). Həm tək sayda, həm də sikkə dəfinələrində bu gün də aşkarlanan, qiymətli metallardan zərb edilən belə sikkələrin analoqları hazırda Milli Azərbaycan Tarixi Muzeyinin Numizmatika Fondunda qorunur.

Ağdam, Ağdərə, Ağcabədi, Bərdə, Füzuli, Xankəndi, Xocavənd, Şuşa və Tərtərdə müxtəlif tarixi mərhələlərdə Azərbaycanın yerli pul təsərrüfatında və xarici ticarət əlaqələrində iştirak edən belə tapıntılar unikal maddi mədəniyyət irsini təmsil edir.

Əvəzsiz tarixi qaynaq, maddi-mədəniyyət abidəsi olan hər bir sikkə dəfinəsi torpağa gömüldüyü dönəmin pul təsərrüfatı, sosial-iqtisadi həyatındakı dəyişiklikləri, daxili və xarici ticarətin səviyyəsi, yayılma arealı və siyasi-konfessional durumunu əks etdirir.

Kataloqda xronoloji ardıcıllıqla təqdim edilən sikkələrin tapılma yerləri haqqında məlumatlar numizmat-alimlər - AMEA-nın müxbir üzvü, t.e.d., professor Yevgeni Paxomov (1880 - 1965), t.e.d., professor Məhəmməd Seyfəddini (1927 - 2004), t.e.d., professor Əli Rəcəbli (1927 – 2020), ötən əsrdə muzeyin Numizmatika Fondunda çalışmış, mərhum əməkdaşı Ağa Rəhimovun və kataloqun tərtibçisi, t.ü.f.d. Aygün Məmmədovanın elmi əsərlərinə istinadlanaraq əldə edilmişdir.

Xüsusi vurğulanmalıdır ki, müxtəlif tarixi dövrlərdə əsas sikkə vahidi kimi gümüş sikkə önəm daşımışdır. Bütün pul funksiyalarını icra edən belə sikkələr dövlətdaxili əmtəə-pul mübadiləsinin ehtiyaclarını ödəyərək beynəlxalq ticarət əməliyyatlarında da əsas ödəniş vasitəsi kimi çıxış edirdi.

Xırda pul qismində istifadə edilən mis sikkələrin dövriyyə arealı onu istehsal edən şəhərin və ya vilayətin ərazisi ilə məhdudlaşırdı. Bəzi tarixi mərhələlərdə bu sikkə gümüş sikkələrin əvəzləyicisi olaraq sikkə zərb etdirmək hüququna malik şəxslərin adından zərb edilmişdir. Təqdim etdiyimiz kataloqda məhz bu qənaətlər əsas bilinmişdir.

Qafqaz Albaniyasının yerli pul təsərrüfatını təmsil edən gümüş sikkə - e.ə. III əsrə aid tetradrahma kataloqdakı ilk sikkədir (NF 47135; 13,9 q). Əsasən Kabalaka (indiki Qəbələ) şəhərində zərb edilən, lokal dövriyyədə işlədilən belə sikkələr anonim (üzərində hökmdar adı olmadan) və anepiqrafik zərb edilirdi.

Makedoniyalı İsgəndərin Şərq yürüşündən və Yunan-Makedoniya imperiyasının yaranmasından sonra qədim Azərbaycanda sikkə zərbinə başlanılmışdır. Belə gümüş sikkələr Hindistandan tutmuş Britaniya adalarına qədər bir sıra ellin dövlətlərin sikkələrinin prototipləri rolunu oynayırdılar. Mühüm beynəlxalq tranzit ticarəti magistrallarının (İpək yolu) keçdiyi Azərbaycanın ellin mədəniyyəti ilə sıx əlaqələri nəticəsində burada xarici zərbxanaların istehsalı olan antik sikkələr də tapılmışdır. Kataloqda təqdim edilmiş Selevki gümüş tetradrahması (NF 47121, 16,7 q) və Roma gümüş denarisi (NF 4492;

3,7 q) antik Azərbaycanın xarici ticarət və əmtəə–pul münasibətlərini təsdiq edən faktlardandır.

Azərbaycanın Ərəb Xilafətinin tərkibinə daxil olması onun həm daxili, həm də xarici ticarətinə təsir etmişdir.

Ərəb xəlifələri işğal etdikləri ərazilərdə, o cümlədən Azərbaycanda hakimiyyətlərinin ilk illərində, əvvəllər istifadə edilən sikkə zərbi ənənəsini qorumağa çalışmış və həmin ərazilərdə istifadə olunan sikkələrin görünüşündə kəskin dəyişikliklər etməkdən çəkinmişlər. Məhz bu səbəbdən də VII əsrin sonunadək həm digər ölkələrdə (Suriya, Fələstin, Şimali Afrika, İspaniya, Orta Asiya), həm də Azərbaycanda «ərəb-sasani» (ərəb-pəhləvi) və d. adlarla tanınan gümüş sikkələr – dirhəmlər zərb edilmiş və yerli əhalinin istifadə etdiyi digər sikkələrlə birgə pul dövriyyəsində iştirak etmişlər.

Üst tərəfində taclı hökmdar büstü və ərəbcə "Allahın adı ilə" sözlərinin həkk edildiyi ərəb-sasani gümüş dirhəmi (NF 29258; 3,84 q) kataloqda təqdim edilmişdir. Belə sikkələrə canişin adı, zərb ili və yeri, Zərdüştlük dininə aid ifadələr həkk edilirdi.

Əvvəlcə Əməvilər, daha sonra isə Abbasilər dövründə əsas sikkə vahidi olaraq dövriyyədə iştirak edən, üzərində kufi xəttli yazılar olan gümüş sikkə - dirhəm həm Azərbaycan, həm də Xilafətin digər zərbxanalarında istehsal edilirdi. Kataloqa VIII əsrdə Vasit (NF 4794; 4793), Mədinət əs-Səlam (Bağdad, NF 1008), Muhəmmədiyyədə (Rey; NF 4181) zərb edilmiş gümüş dirhəmlər daxil edilmişdir. Cənubdan şimala istiqamətlənən mühüm ticarət magistrallarından biri Azərbaycandan keçirdi. Bu yolla gümüş dirhəmlə yüklənmiş karvanlar Xəzər xaqanlığı, Volqa Bulqariyası, Rusiya, Baltik dənizi ölkələri, Skandinaviya, Qərbi Avropaya yönəlirdi.

Kataloqa həm də müvafiq dövrdə Azərbaycanda daxili pul bazarında işlədilən, xırda ticarət üçün nəzərdə tutulan mis sikkələr – Bərdə (NF 14169; 51162) və Arranda (NF 57000) zərb edilmiş felslər (1 - 3 q) daxil edilmişdir. Belə felslərə canişin adı, zərb ili, zərbxana və İslam dininə aid yazılar həkk edilirdi.

X əsrin sonunda Ərəb Xilafətinin zəifləməsi nəticəsində Azərbaycanda yaranan orta əsr dövlətlərindən biri də Şəddadilər dövləti idi. Bu dövlətin başlıca sikkə vahidi - gümüş dirhəmə (NF 28974; Gəncə, 2,6 q) yerli hökmdarın və ərəb xəlifəsinin adları, zərbxana yeri, zərb ili, İslam dininə aid ifadələr həkk edilirdi. Şəddadi dirhəmləri Ərəb Xilafəti dövrünün dirhəmindən fərqli olaraq daha kiçik diametrlə zərb edilirdi.

XI əsrdən eibarən cənub-şimal marşrutu üzrə ticarət-tranzit əməliyyatları digər Şərq-Qərb vektoru ilə əvəzləndi.

XII – XIII əsrlərin pul dövriyyəsində Kiçik Asiyadan, o cümlədən Səlcuqluların ərazilərindən Cənubi Qafqaza daxil olan Bizans qızıl sikkələrindən (nomisma yaxud solid) istifadə edilirdi. Həm Qarabağ bölgəsində, həm də Azərbaycanın digər məkanlarında aşkarlanmış qabarıq formalı belə qızıl solidlər (4,3 – 4,4 q) əsasən Konstantinopolda (indiki İstanbul) zərb edilirdi. Üzərində imperator təsvirləri, yunan-latın qrafikası ilə yazılar, xristianlıq dininin rəmzləri həkk edilmiş belə qızıl sikkələr Şərqlə ticarət üçün nəzərdə tutulmuşdu (XF 460).

Dövrün pul dövriyyəsində həm də Səlcuqlu sultanları dövrünün gümüş (dirhəm; 6381) və mis (dirhəm və fels) sikkələri də iştirak edirdi. Üzərində təsvirlər, ərəb qrafikası ilə soltan adları, titulları və d. yazılar olan belə sikkələr Sivas, Konya və d. zərbxanalarda istehsal edilirdi (NF 57004; 10882; 11099). XIII əsrdə Azərbaycanın pul dövriyyəsində Xarəzmşahlar dövləti sikkələrinin iştirak etdiyi mis fels tapıntıları ilə təsdiqini tapır (NF 15827).

Belə sikkələrin Mərkəzi Qafqaza, o cümlədən Azərbaycana axını XIV əsrin əvvəlinədək davam etmişdir.

Cənubi Qafqazda və qonşu ərazilərdə səksən ildən artıq müddətdə mövcud olmuş Azərbaycan Atabəylərinin (Eldənizlər – 1136-1225) hakimiyyəti dövrünün əsas sikkələri (mis fels və dirhəm) görünüş baxımından əvvəlki sikkələrdən tamamilə fərqlənirdi. Azərbaycan zərbxanalarında (Naxçıvan, Beyləqan, Şəmkir, Gəncə, Bərdə, Ərdəbil, Urmiya, Təbriz, Səlmas, Həmədan, Marağa, Dəbil və b.) zərb edilən belə sikkələrə ərəb qrafikası ilə hökmdar adları, İslam dininə aid ifadələr və d. yazılar həkk edilirdi (NF 16723). Azərbaycan atabəylərinin sikkələri İraq Səlcuqlarına tabe olan bəzi vilayətlərinin də pul dövriyyəsində sikkə vahidi kimi istifadə edilirdi.

Azərbaycanın pul təsərrüfatında işlədilən Elxani gümüş sikkələrinə - dirhəmlərə uyğur və ərəb qrafikləri hökmdar adları, titulları, zərb ili, zərbxana və dini yazılar həkk edilirdi (NF 5700; 5701; 56424). Bu dövrdə Cənubi Qafqaz vilayətlərinin İran, İraq, Türkiyə, Əfqanıstan, Suriyanın şimal hissəsi, Rusiyanın müəyyən hissəsi ilə ticarət əlaqələri həmin ölkələrin sikkə tapıntıları ilə məlum olmuşdur. Dövrün pul təsərrüfatında həm də bürünc felslər iştirak edirdi (NF 11007).

XIV əsrin ikinci yarısında Azərbaycanda zərb edilən Cəlairi (NF 24758; 14645) gümüş təngələri "işğal zərbi" qrupuna daxil olan sikkələrdir. Bakı, Şabran, Şamaxı, Bərdə və Əlincədə zərb edilən belə gümüş təngələr ölkənin əmtəə-pul tədavülü barədə məlumat verməklə yanaşı orta əsr kalliqrafiyasını da əyani əks etdirir. Şirvanın gümüş təngələri yalnız daxili bazarın ehtiyaclarını ödəmək üçün istehsal edilmirdi. Növbəti əsrdə də belə ağırçəkili, üzərində hökmdar adı, titulu, zərb ili, zərbxananın adı həkk edilmiş gümüş təngələr Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin əsas sikkə vahidi kimi ticarətdə istifadə edilmişdir.

Qüdrətli Səfəvilər dövlətinin şəhər-zərbxanalarının (Təbriz, Naxçıvan, İrəvan və d.) gümüş sikkələri (muhəmmədi, abbası) və mis sikkələr (fels, qazbəyi) dövrün pul təsərrüfatı və ticarət əlaqələri haqqında nəticələr əldə etməyə imkan yaradır. Kalliqrafik gözəlliyi ilə fərqlənən müxtəlif sikkə nominalları varislik prinsipini təsdiq etməklə yanaşı həm də poeziya nümunələrini də əks etdirir (NF 9177; 1153; 8494; 57005; 4854; 24781; 24794; 40050; 9311; 8369; 57006).

XVI əsrdə gümüş Qərbi Avropanın (Almaniya, Polşa, Danimarka, Hollandiya, İsveç, Norveç, Avstriya, Macarıstan, İtaliya, İspaniya və d.) gümüş talerləri və onların fraksiyalarının Azərbaycanda, o cümlədən Qarabağda Səfəvi gümüş sikkələri ilə birgə aşkarlanması orta əsrlərdə Azərbaycanın ticarət əlaqələrini açıqlayan mühüm tarixi faktlardır (8209; 8211; 8213; 8210; 8212).

Dövrün xarici ölkələrlə olan ticarətini Qarabağda aşkarlanan Osmanlı (NF 27173; 5798), Baburi (NF 28056; 3515), Əfşar (NF 48412) gümüş sikkələri əsasında da müəyyən etmək mümkündür.

Azərbaycan zərbxanalarının fəaliyyətini sübut edən son yadigarlar – xanlıqlar dövrünün gümüş (abbası, 45692; 56315; 32232; 19605) və mis (fels, qazbəyi, NF 1451; 5210) sikkələridir.

XVIII əsrin ikinci yarısı – XIX əsrdə Azərbaycanın pul dövriyyəsində iştirak edən və müxtəlif sikkə vahidlərilə bilinən Zəndilər (abbası, NF 1227) və Qacarların (qıran, NF 1310) gümüş sikkələri dövrün xarici ticarəti barədə aydın təsəvvür yaradır.

Azərbaycanda zərb edilən müxtəlif sikkə vahidləri tranzit yolları vasitəsilə həyata keçirilən xarici ticarət üçün də əlverişli zəmin yaratmış və bu ticarətdə ödəniş vasitəsi kimi iştirak etmişlər.



**NF 47135. Gümüş tetradrahma.** Albaniya. Makedoniyalı İsgəndərin sikkələrinə bənzətmə (e.ə. III yüzil), 13,9 q. Tapılma ili və yeri: 1925-ci il, Bərdə rayonu, Tərtər çayının sol sahili (Пахомов Е.А. Монетные клады Азербайджана и других республик, краев и областей Кавказа. Вып. II, Баку, 1938, с. 9).
1. Antik ilahinin (Herakl?) başı. Sağa yönəlmiş.
2. Antik ilahi (Zevs? ). Oturaq vəziyyətdə, sola yönəlmiş, sağ əlində əsa, sol əlində quş (qartal?).



**NF 47121. Gümüş tetradrahma.** Selevkilər. VII Antiox Everget (e.ə. 138 - 129), 16,7 q. Tapılma ili və yeri: 1929-cu il, Bərdə ətrafındakı ərazi (Пахомов Е.А. Монетные клады Азербайджана и других республик, краев и областей Кавказа. Вып. II, Баку, 1938, с. 9).
1. Antik ilahinin başı. Sağa yönəlmiş.
2. Mərkəzdə sola yönəlmiş antik ilahi (Afinanın əlində Nika). Solda yunanca yazı: ΕΥΕΡΓΕΤΟΥ, təsvirdən sağda yunanca yazı: ΒΑΣΙΛΕΩΣ ΑΝΤΙΟΧΟΥ, sikkə kənarı ilə ağac budaqları.



**NF 4492. Gümüş denari**. Roma. Avqust (e.ə. 27 – e. 14), 3,7 q. Tapılma ili və yeri: 1925-ci il, Bərdə rayonu; 1935-ci il, Dizaxlı (Xocavənd) rayonunun Dolanlar kəndi; 1935-ci il, Şuşa rayonunun Suarası kəndi (Пахомов Е.А. Монетные клады Азербайджана и других республик, краев и областей Кавказа. Вып. IV, Баку, 1949,с. 16)

1. Mərkəzdə imperator Avqustun oğulları Qay və Lusi, əlləri birləşmiş vəziyyətdə, mərkəzdə iki qalxan və iki nizə. Kənarda yunanca yazılar: “AVGVSTI F COS DESIG PRINC IVVENT”.
2. Mərkəzdə sağa yönəlmiş uzun saçlı, başında dəfnə yarpaqlarından çələng olan imperator başı. Arxasında yunanca yazı: CAESAR AVGVSTVS DIVI F PATER PATRIAE.



**NF 29258. Gümüş dirhəm.** Əməvilər. Abdullah bin əl-Zubəyr (624-692). ST (İstəxr), 60-cı h.i., 3,84 q. Tapılma ili və yeri: 1935-ci il, Ağdam rayonu (Пахомов Е.А. Монетные клады Азербайджана и других республик, краев и областей Кавказа. Вып. III, Баку, 1940, с. 37-38).

1. Mərkəzdə atəşgah, sağ və sol tərəfində mühafizəçi. Sağ mühafizəçinin yanında pəhləvi yazısı: “ST”, sol mühafizəçinin yanında pəhləvicə yazı: “Altmışıncı il”. Üçdairəli möhürün xaricində, dörd tərəfində Ay və ulduz.
2. Mərkəzdə sağa yönəlmiş saqqallı hökmdar təsviri (II Xosrovun büstü, boynunda və qulaqlarında bəzək əşyaları, qanadlı tac ilə). Təsvirin arxasında pəhləvicə yazı: “Qoy şöləsi ucalsın!”, önündə pəhləvicə yazı: “Abdullah bin Zubəyr”. İkidairəli möhürün xaricində ərəbcə yazı: “Allahın adı ilə”.



**NF 4794. Gümüş dirhəm.** Əməvilər. Vasit, hicri 95 = 713-714, 2,8 q. Tapılma ili və yeri: 1935-ci il, Ağdam rayonu (Пахомов Е.А. Монетные клады Азербайджана и других республик, краев и областей Кавказа. Вып. III, Баку, 1940, с. 37-38)
1. Mərkəzdə ərəb kufi xətti ilə yazı: "Allahdan qeyri ilahi yoxdur, vahiddir, şəriki yoxdur". Ətrafında yuxarıdan sola: "Allahın adı ilə bu dirhəm Vasitdə doxsan beşinci ildə zərb edilib".
2. Mərkəzdə ərəb kufi xətti ilə yazı: "Allah təkdir, Allah əbədidir, doğmayıb və doğulmayıb və Ona bərabər tanrı yoxdur". Ətrafında: "Allahın elçisi Muhəmməd müşriklərin müqavimətinə baxmayaraq, Onu (İslamı) başqa dinlərdən üstün etmək üçün göndərilmişdir" (Quran, "Tövbə" surəsi, 33-cü ayə).



**NF 4793. Gümüş dirhəm.** Əməvilər. Vasit, hicri 128 = 745-746, 2,5 q. Tapılma ili və yeri: 1952-ci il, Ağdam rayonunun Miraşelli kəndi // Рагимов А.В. Клад серебряных монет XVII - XVIII вв.// Доклады. Том VIII,Отд.оттиск. Баку, Изд. АН АССР, 1952, с. 143 - 149
1. Mərkəzdə ərəb kufi xətti ilə yazı: "Allahdan qeyri ilahi yoxdur, vahiddir, şəriki yoxdur". Ətrafında yuxarıdan sola: "Allahın adı ilə bu dirhəm Vasitdə yüz iyirmi səkkizinci ildə zərb edilib".
2. Mərkəzdə ərəb kufi xətti ilə yazı: "Allah təkdir, Allah əbədidir, doğmayıb və doğulmayıb və Ona bərabər tanrı yoxdur". Ətrafında: "Allahın elçisi Muhəmməd müşriklərin müqavimətinə baxmayaraq, Onu (İslamı) başqa dinlərdən üstün etmək üçün göndərilmişdir" (Quran, "Tövbə" surəsi, 33-cü ayə).



**NF 14169. Mis fels.** Abbasilər. Yəzid bin Usəyd, Bərdə, hicri 142 = 759/60, 2,6 q. Tapılma ili və yeri: 1955-ci il, Bərdə rayonu (Пахомов Е.А. Монетные клады Азербайджана и других республик, краев и областей Кавказа. Вып. VII, Баку, 1957, с. 19).
1. Mərkəzdə ərəb kufi xətti ilə yazı: "Allahdan qeyri ilahi yoxdur". Ətrafında ərəbcə yazı: "Allahın adı ilə. Yəzid ibn Usəydin əmri ilə".
2. Mərkəzdə ərəb kufi xətti ilə yazı: "Muhəmməd Allahın elçisidir". Ətrafında: "Bərdədə zərb edilib, yüz qırx ikinci ildə".



**NF 57000. Mis fels.** Abbasilər. VIII əsr. 1,97 q. Tapılma ili və yeri: 2015-2018-ci illərdə Bərdə şəhərinin Torpaqqala ərazisində // Məmmədova A.M., Qasımov A.A. 2015-2018-ci illərdə Bərdədə arxeoloji qazıntılar nəticəsində aşkarlanan numizmatik tapıntılar // "Tarix. İnsan.Cəmiyyət", Bakı: ADPU, 2023, s. 3 - 12.
1. Mərkəzdə ərəb kufi xətti ilə yazı: "Muhəmməd Allahın elçisidir".
2. Mərkəzdə ərəb kufi xətti ilə yazı: "Allahdan qeyri ilahi yoxdur, vahiddir, şəriki yoxdur". Aşağıda simvol.



**NF 1008. Gümüş dirhəm.** Abbasilər. Mədinət əs-səlam (Bağdad), hicri 150 = 767-768, 2,8 q. Tapılma ili və yeri: 1935-ci il, Ağdam rayonu (Пахомов Е.А. Монетные клады Азербайджана и других республик, краев и областей Кавказа. Вып. III, Баку, 1940, с. 37-38).

1. Mərkəzdə ərəb kufi xətti ilə yazı: “Allahdan qeyri ilahi yoxdur, vahiddir, şəriki yoxdur”. Ətrafında yuxarıdan sola: “Allahın adı ilə bu dirhəm Mədinət əs-Səlamda yüz əllinci ildə zərb edilib”.

2. Mərkəzdə ərəb kufi xətti ilə yazı: “Muhəmməd Allahın elçisidir”. Aşağıda “bəh”. Ətrafında: “Allahın elçisi Muhəmməd müşriklərin müqavimətinə baxmayaraq, Onu (İslamı) başqa dinlərdən üstün etmək üçün göndərilmişdir” (Quran, “Tövbə” surəsi, 33-cü ayə).



**NF 4181. Gümüş dirhəm.** Abbasilər. Muhəmmədiyyə (Rey), hicri 150 = 767-768, 2,8 q. Tapılma ili və yeri: 1935-ci il, Ağdam rayonu (Пахомов Е.А. Монетные клады Азербайджана и других республик, краев и областей Кавказа. Вып. III, Баку, 1940, с. 37-38).

1. Mərkəzdə ərəb kufi xətti ilə yazı: “Allahdan qeyri ilahi yoxdur, vahiddir, şəriki yoxdur”. Ətrafında yuxarıdan sola: “Allahın adı ilə bu dirhəm Muhəmmədiyyədə yüz əllinci ildə zərb edilib”.

2. Mərkəzdə ərəb kufi xətti ilə: “sad”, ondan aşağıda: “möminlər əmirinin oğlu əl-Mehdi Muhəmmədin əmri ilə...”. Ətrafında: “Allahın elçisi Muhəmməd müşriklərin müqavimətinə baxmayaraq, Onu (İslamı) başqa dinlərdən üstün etmək üçün göndərilmişdir” (Quran, “Tövbə” surəsi, 33-cü ayə).



**NF 51162. Mis fels.** Abbasilər. Yəzid İbn Useyd, hicri 165 = 781-782, Bərdə, 3,06 q. Tapılma ili və yeri: 1939-cu il, Stepanakert (Xankəndi) şəhəri (Пахомов Е.А. Монетные клады Азербайджана и других республик, краев и областей Кавказа. Вып.4, Баку 1949, с. 31).
1. Mərkəzdə ərəb kufi xətti ilə yazı: "Allahdan qeyri ilahi yoxdur, vahiddir, şəriki yoxdur". Ətrafında yuxarıdan sola: "əmir Yəzid ibn Usəydin əmri ilə. Allah onun qələbəsini ucaltsın"
2. Mərkəzdə ərəb kufi xətti ilə: "Muhəmməd Allahın elçisidir". Aşağıda simvol. Ətrafında: "Allahın adıyla, Yəzid ibn Usəydin əmri ilə bu fels Bərdədə yüz altmış beşinci ildə zərb edilib".



**NF 28974. Gümüş dirhəm.**Şəddadilər. I Fəzl bin Muhəmməd (375 - 422 = 985 - 1030), Gəncə, hicri 401 = 1010-1011, 2,6 q. Tapılma ili və yeri: 1984-cü il, Bərdə rayonu (Rəcəbli Ə. Sikkə dəfinələrinin izi ilə, s. 337).
1. Mərkəzdə ərəb xətti ilə yazı: "Allahdan qeyri ilahi yoxdur, vahiddir" nöqtəvari xəttdən aşağıda: "şəriki yoxdur", ondan aşağıda: "Əl-Qadir billah". Ətrafında: "Allahın elçisi Muhəmməd müşriklərin müqavimətinə baxmayaraq, Onu (İslamı) başqa dinlərdən üstün etmək üçün göndərilmişdir" (Quran, "Tövbə" surəsi, 33-cü ayə); "Allahın adı ilə bu dirhəm Gəncədə dörd yüz birinci ildə zərb edilib".
2. Mərkəzdə ərəb xətti ilə: "Lillah. Muhəmməd Allahın elçisidir, əl-əmir, əs-seyid əl-mənsur Fədl bin Muhəmməd Şəddadi". Ətrafında: Quran, "Tövbə" surəsi, 33-cü ayə.




**XF 460. Qızıl solid.** Bizans. IV Roman (1067 - 1071). Qızıl solid, 4,33 q. Tapılma ili və yeri: 1953-cü il, Mardakert (Ağdərə) rayonunun Vəngli kəndi (Пахомов Е.А. Монетные клады Азербайджана и других республик, краев и областей Кавказа. Вып. VII, Баку, 1957, с. 17).
1. Mərkəzdə üç insan təsviri, mərkəzdəki insanın başı üzərində halə (xalça üzərində dayanmiş İsa Məsih əllərini imperator Roman və həyat yoldaşı Yevdokiyanın başına çəkir). Üzərində yunanca yazı: IC — XC; solda: PAN; sağda: EVΔKII. Ətrafında iki dairəli, nöqtəvari sikkə möhürü.
2. Mərkəzdə sağ əlində əsa olan Konstantin, ondan solda sağ əlində xaçlı əsa tutmuş Mixail (solda yunanca yazı: MX), mərkəzdəki imperatordan sağda, sol əlində xaçlı əsa tutmuş Andronik (sağda yunanca yazı: ANΔ). Alt tərəfdə nöqtəvari düz xətt. Ətrafında iki dairəli, nöqtəvari sikkə möhürü.




**NF 57004. Mis fels.** Roma Səlcuqluları. II Qılıc Arslan (hicri 551 – 588 = 1155 - 1192). 5,99 q (atlı təsviri ilə) // Tapılma ili və yeri: 2015-2018-ci illərdə Bərdə şəhərinin Torpaqqala ərazisində // Məmmədova A.M., Qasımov A.A. 2015-2018-ci illərdə Bərdədə arxeoloji qazıntılar nəticəsində aşkarlanan numizmatik tapıntılar // "Tarix. İnsan.Cəmiyyət", Bakı: ADPU, 2023, s. 3 - 12.
1. Əlində üşdişli yaba tutmuş, sağa yönəlmiş atlı.
2. Ərəbcə yazı: "Kılıc Arslan". Nöqtəvari sikkə möhürü ilə.



**NF 10882. Mis fels.** Roma Səlcuqluları. II Qılıc Arslan (hicri 551 - 588 = 1155-1192), 2,8 q (atlı təsviri ilə). Tapılma ili və yeri: 1952-ci il, Ağdam rayonunun Xındırıstan kəndi // Пахомов Е. Монетные клады Азербайджана и других республик, краев и областей Кавказа. Вып. 7, Баку: 1957, s. 23
1. Ərəbcə yazı: "Kılıc Arslan".
2.Sağa yönəlmiş atlı. Nöqtəvari sikkə möhürü ilə.



**NF 11099. Mis dirhəm.** Roma Səlcuqluları. II Süleyman (hicri 595 – 600 = 1198-1203), 6,6 q. Пахомов Е. Монетные клады Азербайджана и других республик, краев и областей Кавказа. Вып. 7, Баку: 1957, с.24
1. Sağa yönəlmiş atlı.
2. Ərəbcə yazı: "Suleyman".



**NF 6381. Gümüş dirhəm.** Səlcuqlular. I Keyqubad bin Keyxosrov (616-634 = 1220-1237), Sivas, 2,9 q. Tapılma ili və yeri:1926-cı il, Cərabert (Ağdərə) rayonunun Dovşanlı və Bazarkənd kəndləri arasında (Пахомов Е.А. Монетные клады Азербайджана и других республик, краев и областей Кавказа. Вып. II, Баку, 1938, с. 35)
1. Mərkəzdə ərəbcə yazı: "əzəmətli sultan Keyqubad bin Keyxusruv", kənarında: "Sivas".
2. Mərkəzdə ərəbcə yazı: "əl-imam ul-Mustasim billah əmir əl-muminin"...



**NF 57002.** Mis fels. Azərbaycan atabəyləri. Məhəmməd Cahan Pəhləvan (hicri 571 – 582 = 1175 - 1186). 1,6 q // Tapılma ili və yeri: 2015-2018-ci illərdə Bərdə şəhərinin Torpaqqala ərazisində // Məmmədova A.M., Qasımov A.A. 2015-2018-ci illərdə Bərdədə arxeoloji qazıntılar nəticəsində aşkarlanan numizmatik tapıntılar // "Tarix. İnsan.Cəmiyyət", Bakı: ADPU, 2023, s. 3 - 12.
1. Ərəbcə yazı: "Cəha..."
2. Yazılar silinib.



**NF 16723. Mis dirhəm.** Azərbaycan atabəyləri. Əbubəkr (587 – 607 = 1191 – 1210), xəlifə ən-Nasir (575 -622 = 1180 -1225 ), 7,6 q. Tapılma ili və yeri: XX əsrin 20-ci illəri, Ağcabədi rayonu, Örənqala şəhər yeri. (Пахомов Е.А. Монетные клады Азербайджана и других республик, краев и областей Кавказа. Вып. II, Баку, 1938, с. 29).
1. Ərəbcə yazı: "möminlərin əmiri".
2.Ərəbcə yazı: "əzəmətli atabəy Əbubəkr".



**NF 15827. Mis fels.** Xarəzmşahlar. Manqburnı (Cəlaləddin Əbul Muzəffər bin Muhəmməd – 617-628 = 1220 - 1230), Hicri 623 = 1226, 4,9 q. Tapılma ili və yeri: 1955-ci il, Bərdə rayonu. Пахомов Е.А. Монетные клады Азербайджана и других республик, краев и областей Кавказа. Вып. VIII, Баку, 1959, с. 19
1. Ərəbcə yazı: "cəlalə...", "ul mu..."
2.Ərəbcə yazı: "əl-sultan".



**NF 5700. Gümüş dirhəm.** Elxanilər. Abaqa, Təbriz, hicri 680 = 1281, 2,7 q. Tapılma ili və yeri: 1935-ci il, Ağdam rayonu (Пахомов Е.А. Монетные клады Азербайджана и других республик, краев и областей Кавказа. Вып. III, Баку, 1940, с. 48).
1. Mərkəzdə dördbucaqlı möhürdə ərəbcə yazı: "Allahdan qeyri ilahi yoxdur, Muhəmməd Allahın elçisidir", ətrafında ərəbcə yazılar: "altı yüz səksəninci ildə Təbrizdə zərb edilib".
2. Uyğurca yazılar: "xaqan Abaqa adından zərb edilib".



**NF 5701. Gümüş dirhəm.** Elxanilər. Arğun (1284-1291), hicri 684 = 1285-1286, 2 q. Tapılma ili və yeri: 1939-cu il, Stepanakert (Xankəndi).
(Пахомов Е.А. Монетные клады Азербайджана и других республик, краев и областей Кавказа. Вып. IV, Баку, 1949, с. 48-49 ).
1. Dördbucaqlı dördbucaqlı möhürdə ərəbcə yazılar: "Allahdan qeyri ilahi yoxdur, Muhəmməd Allahın elçisidir", ətrafında ərəbcə: "altı yüz səksən dördüncü ildə...".
2. Uyğurca yazılar: "xaqan Arğunun adından zərb edilib", son sətirdə ərəbcə: "Arğun".



**NF 56424. Gümüş dirhəm.** Elxanilər. Arğun (1284-1291), Təbriz, hicri 685=1286-1287, 2,53 q. Tapılma ili və yeri: 1926-cı il, Cərabert (Ağdərə) rayonu, Dovşanlı və Bazar-kənd kəndləri arasında (Пахомов Е.А. Монетные клады Азербайджана и других республик, краев и областей Кавказа. Вып. II, Баку, 1938, с. 35).
1. Uyğurca yazılar: "xaqan Arğunun adından zərb edilib". Aşağıda ərəbcə: "Arğun"
2. Mərkəzdə dördbucaqlı möhürdə ərəbcə yazı: "Allahdan qeyri ilahi yoxdur, Muhəmməd Allahın elçisidir", ətrafında ərəbcə yazılar: "altı yüz səksən beşinci ildə Təbrizdə zərb edilib".



**NF 11007. Bürünc fels.** Elxanilər. Əbu Səid (716-736=1316-1335). Təbriz, 4.4 qr. Tapılma ili və yeri: 1929 cu il Bərdə. (Пахомов Е.А. Монетные клады Азербайджана и других республик, краев и областей Кавказа. Вып. II, Баку, 1938, с. 36).
1. Ərəbcə yazı: "Əbu Səid", damğa.
2. Yazılar silinib.



**NF 14035. Gümüş dirhəm.** Elxanilər. Əbu Səid (1316-1335), hicri 727 = 1326-1327, 12,6 q (altıguşəlu ulduz). Tapılma ili və yeri: 1938-ci il, Karyagin (Füzuli) rayonu (Пахомов Е.А. Монетные клады Азербайджана и других республик, краев и областей Кавказа. Вып. IV, Баку, 1949, с. 49-50).
1. Mərkəzdə ləçəkli möhürün daxilində ərəbcə: “əl-sultan”, solda: “Əbusəid”,ətrafında: “yeddi yüz iyirmi yeddinci ildə”.
2. Mərkəzdə ərəbcə yazı: “Allahdan başqa ilah yoxdur, Muhəmməd Allahın elçisidir”, möhürün xaricində ərəbcə yazılar: “Ömər”, yuxarıda sağda: “Əbubəkr”.



**NF 24758. Gümüş dirhəm .** Cəlairilər. Əhməd (784-813), Bakuyə, hicri 785 = 1383, 1,1 q Tapılma ili və yeri: 1912-ci il, Şuşa qəzasının Saruşen kəndi. Пахомов Е.А. Монетные клады Азербайджана и других республик, краев и областей Кавказа. Вып. I, Баку, 1926, с. 59
1. Mərkəzdə ərəbcə yazı: “sultan Əhməd”, ətrafında zərb ilinin sözləri zəif nəzərə çarpır.
2. Mərkəzdə ərəbcə yazı: “zərb ... Muhəmməd Allahın elçisidir”, aşağıda: “Baku...”.



**NF 14645. Gümüş dirhəm.** Cəlairilər. Hüseyn, Şamaxı, hicri 783 = 1381, 1,3 q. Tapılma ili və yeri: 1912-ci il, Şuşa qəzasının Saruşen kəndi. Пахомов Е.А. Монетные клады Азербайджана и других республик, краев и областей Кавказа. Вып. I, Баку, 1926, с. 59
1. Yuxarıda ərəbcə yazı: "Əbubəkr", "zərb edilib", "Allahdan başqa ilah yoxdur, Muhəmməd Allahın elçisidir", "Şamaxı", kənarında: "Ömər".
2. Mərkəzdə: "Hakimiyyəti davamlı olsun", ətrafındakı hücrələrdə: "Cəlaləddin", zərb ili sözlərlə zərb edilib.



**NF 9177. Mis fels.**Səfəvilər. I Təhmasib (930 – 984 =1523 - 1576), Təbriz, hicri 954 = 1547 - 1548. 4,4 q. Tapılma ili və yeri: Tərtər rayonu, Borsunlu kəndi, 1982-ci il. Сейфеддини М.А. Средневековые монетные клады Азербайджана (1968 - 1983). Баку: Элм, 1994, с. 73-79
1.Mərkəzdə ərəbcə yazı: "Təhmasib, Təbriz, 954".
2.Sola yönəlmiş keçi.



**NF 1153. Gümüş təngə.** Səfəvilər. I Təhmasib (930 – 984 = 1523 - 1576), Şamaxı. 4,7 q. Tapılma ili və yeri: Tərtər rayonu, Borsunlu kəndi, 1982-ci il. Сейфеддини М.А. Средневековые монетные клады Азербайджана (1968 - 1983). Баку: Элм, 1994, с. 73-79

1.Mərkəzdə ərəbcə yazılar: "Təhmasib", "Muhəmməd Allahın elçisidir, Əli Allahın yaxınıdır", "Şamaxı".

2.Yazılar silinib.



**NF 3468. Gümüş mahmudi.** Səfəvilər. I Süleyman (1079 – 1105 = 1668 - 1693), Huveyzə, hicri 1088 = 1677-1678, 3,2 q. Tapılma ili və yeri: 1939-cu il, Xankəndi rayonunun Kərkicahan kəndi // Пахомов Е.А. Монетные клады Азербайджана и других республик, краев и областей Кавказа. Вып. IV, Баку, 1949, с. 76

1.Mərkəzdə ərəbcə yazılar: "Hoveyzə", "1088".

2. Mərkəzdə ərəbcə yazılar: "Əli Allahın yaxınıdır", ətrafında: "Suleyman".



**NF 8494. Gümüş abbası.** Səfəvilər. I Hüseyn (1105-1135 = 1693 – 1722). Gəncə, 1110 = 1698-1699, 7 q. Tapılma ili və yeri: 1955-ci il, Mardakert (Ağdərə rayonu), Пахомов Е.А. Монетные клады Азербайджана и других республик, краев и областей Кавказа. Вып. VIII, Баку, 1959, с. 24 - 25

1. Mərkəzdə ərəbcə yazı: “Allahdan başqa ilahi yoxdur, Muhəmməd Allahın elçisidir, Əli Allahın yaxınıdır”, ətrafında 12 imamın adları.
2. “möminlərin əmiri, sultan Huseyn”, “Gəncədə zərb edilib”, “1110”.



**NF 57005. Gümüş şahi.** Səfəvilər. I Hüseyn (hicri 1105 – 1135 = 1693 - 1723), Təbriz, hicri 1129 = 1716-1717, 1,65 q // Tapılma ili və yeri: 2015-2018-ci illərdə Bərdə şəhərinin Torpaqqala ərazisində // Məmmədova A.M., Qasımov A.A. 2015-2018-ci illərdə Bərdədə arxeoloji qazıntılar nəticəsində aşkarlanan numizmatik tapıntılar // “Tarix. İnsan.Cəmiyyət”, Bakı: ADPU, 2023, s. 3 - 12.

1. Mərkəzdə ərəbcə yazı: “Allahdan başqa ilahi yoxdur, Muhəmməd Allahın elçisidir, Əli Allahın yaxınıdır”, ətrafında 12 imamın adları.
2. “sultan Huseyn”, “Təbrizdə zərb edilib”, “1129”.



**NF 4854. Gümüş abbası.** Səfəvilər. I Hüseyn (hicri 1105 – 1135 = 1693 - 1723), Naxçıvan, hicri 1130 = 1717-1718, 5,2 q // Пахомов, вып 2, с. 51

1. Mərkəzdə ərəbcə yazı: “Allahdan başqa ilahi yoxdur, Muhəmməd Allahın elçisidir, Əli Allahın yaxınıdır”, ətrafında 12 imamın adları.
2. “vilayət şahı sultan Huseyn”, “Naxçıvanda zərb edilib”, “1130”.



**NF 24781. Gümüş abbası.** Səfəvilər. I Hüseyn (hicri 1105 – 1135 = 1693 - 1723), İrəvan, hicri 1130 = 1717-1718, 5,4 q. Tapılma ili və yeri: 1952-ci il, Ağdam rayonunun Miraşelli kəndi // Рагимов А.В. Клад серебряных монет XVII - XVIII вв.// Доклады. Том VIII,Отд.оттиск. Баку, Изд. АН АССР, 1952, с. 143 - 149

1. Mərkəzdə ərəbcə yazı: “Allahdan başqa ilahi yoxdur, Muhəmməd Allahın elçisidir, Əli Allahın yaxınıdır”, ətrafında 12 imamın adları.
2. “vilayət şahı sultan Huseyn”, “İrəvanda zərb edilib”, “1130”.



**NF 24794. Gümüş abbası.** Səfəvilər. Hüseyn (hicri 1105 – 1135 = 1693 - 1723), Təbriz, hicri 1131 = 1718-1719, 5,5 q. Tapılma ili və yeri: 1952-ci il, Ağdam rayonunun Miraşelli kəndi // Рагимов А.В. Клад серебряных монет XVII - XVIII вв.// Доклады. Том VIII,Отд.оттиск. Баку, Изд. АН АССР, 1952, с. 143 - 149
1. “vilayət şahı sultan Huseyn”, “Təbrizdə zərb edilib”, “1131”.
2. Mərkəzdə ərəbcə yazı: “Allahdan başqa ilahi yoxdur, Muhəmməd Allahın elçisidir, Əli Allahın yaxınıdır”, ətrafında 12 imamın adları.



**NF 40050. Gümüş abbası.** Səfəvilər. I Hüseyn (hicri 1105 – 1135 = 1693 - 1723), Naxçıvan, hicri 1131 = 17181-1719, 5,04 q. Tapılma ili və yeri: 1935-ci il, Ağdam rayonu. Пахомов Е.А. Монетные клады Азербайджана и других республик, краев и областей Кавказа. Вып. III, Баку, 1940, с. 60
1. Mərkəzdə ərəbcə yazı: “Allahdan başqa ilahi yoxdur, Muhəmməd Allahın elçisidir, Əli Allahın yaxınıdır”, ətrafında 12 imamın adları.
2. “vilayət şahı sultan Huseyn”, “Naxçıvanda zərb edilib”, “1131”.



**NF 9311. Gümüş abbası.** Səfəvilər. Sultan Hüseyn (1105-1135 = 1693 - 1722), Gəncə, hicri 1132 = 1719-1720, 5,3 q. Tapılma ili və yeri: 1939-cu il, Xankəndi rayonunun Kərkicahan kəndi // Пахомов Е.А. Монетные клады Азербайджана и других республик, краев и областей Кавказа. Вып. IV, Баку, 1949, с. 76

1. Mərkəzdə ərəbcə yazı: "Allahdan başqa ilahi yoxdur, Muhəmməd Allahın elçisidir, Əli Allahın yaxınıdır", ətrafında nöqtəvari möhür.
2. "vilayət şahı sultan Huseyn", "Gəncədə zərb edilib", "1132", ətrafında nöqtəvari möhür.



**NF 8369. Gümüş muhəmmədi.** Səfəvilər. II Təhmasib (1135-1145 = 1722-1723), Təbriz, hicri 1135 = 1722/3, 2,7 q. Tapılma ili və yeri: 1939-cu il, Xankəndi rayonunun Kərkicahan kəndi // Пахомов Е.А. Монетные клады Азербайджана и других республик, краев и областей Кавказа. Вып. IV, Баку, 1949, с. 76

1. Mərkəzdə ərəbcə yazı: "Allahdan başqa ilahi yoxdur, Muhəmməd Allahın elçisidir, Əli Allahın yaxınıdır", ətrafında 12 imamın adları.
2. "Sahibqıran sikkəsi, Təhmasib, Təbrizdə zərb edilib", "1135".



**NF 57006. Mis qazbəyi. Səfəvilər.** XVIII əsrin əvvəli. 9,05 q (şir və Günəş təsviri ilə). Tapılma ili və yeri: 2015-2018-ci illərdə Bərdə şəhərinin Torpaqqala ərazisində // Məmmədova A.M., Qasımov A.A. 2015-2018-ci illərdə Bərdədə arxeoloji qazıntılar nəticəsində aşkarlanan numizmatik tapıntılar // “Tarix. İnsan.Cəmiyyət”, Bakı: ADPU, 2023, s. 3 - 12.
1. Mərkəzdə şir və Günəş təsviri.
2. “fulus...”.



**NF 8209. Gümüş taler.** Brandenburq. Georq Albert (1515 - 1543), 1540, 28,8 q Tapılma ili və yeri: 1935-ci il, Karyagin (Füzuli) rayonu. Пахомов Е.А. Монетные клады Азербайджана и других республик, краев и областей Кавказа. Вып. III, Баку, 1940, с. 67-68
1. Üzbəüz duran qurşağa qədər başı açıq iki kişi portreti, üzərində: 1540, ətrafında yazılar: +D*G*GEOR*7*ALBERT*MARCHION*BRAND*7*S
2. Mərkəzdə ornamentli xaç təsviri, ətrafında gerblər, solda qartal rəsmi, ətrafında yazılar:+SI DEVS PRONOBIS QVIS CONTRA NOS.



**NF 8211. Gümüş taler.** Almaniya. I Ferdinand (1531—1562), 1548, 28,5 q Tapılma ili və yeri: 1935-ci il, Karyagin (Füzuli) rayonu. Пахомов Е.А. Монетные клады Азербайджана и других республик, краев и областей Кавказа. Вып. III, Баку, 1940, с. 67-68

1. Başında tac olan imperatorun sağa yönəlmiş qurşaqa qədər təsviri, sol əlində üstündə xaçlı qızıl şar (kürə), sağ əlində isə əsa tutub. Ətrafında: 1548. Dairəvari yazı:+FERDINAN D$^{o}$ G$^{o}$ ROM (xırda gerb), BOEM$^{o}$ HVNG$^{o}$

2. Sola yönəlmiş heraldik qartal təsviri və yazılar: +INFANS$^{o}$ HISPANIAR ARCHIDVX$^{o}$AVSTR.



**NF 8213. Gümüş taler.** Harford. 1552, 28,2 q. Tapılma ili və yeri: 1935-ci il, Karyagin (Füzuli) rayonu. Пахомов Е.А. Монетные клады Азербайджана и других республик, краев и областей Кавказа. Вып. III, Баку, 1940, с. 67-68

1. Taclı şir təsviri və ətrafında yazılar: *VICIT LEO DETRIBV I VDA.

2. Naxışlı, gerbli qalxan və ətrafında yazılar: *MON DOMI ET CIVITA HERFOR



**NF 8210. Gümüş taler.** Zalsburq. İoann İak, 1556, 27,4 q. Tapılma ili və yeri: 1935-ci il, Karyagin (Füzuli) rayonu. Пахомов Е.А. Монетные клады Азербайджана и других республик, краев и областей Кавказа. Вып. III, Баку, 1940, с. 67-68
1. Əynində mitra, başı üzərində halə taxtda oturmuş yepiskop təsviri  və ətrafında yazılar: SANCTVIS. RVDBERTVS. EPVS.  SALZBVRGEN.
2. İki ədəd gerbli qalxan və yazılar: ...OAN IAC D G. ARCHIEPS. SAL.....



**NF 8212. Gümüş taler.** Horn. Filip de Monmoran, 1568, 27,9 q. Tapılma ili və yeri: 1935-ci il, Karyagin (Füzuli) rayonu. Пахомов Е.А. Монетные клады Азербайджана и других республик, краев и областей Кавказа. Вып. III, Баку, 1940, с. 67-68
1. Sola yönəlmiş atlı (müqəddəs Martin) təsviri, ətrafında yazılar: SANCTVS*MARTIN (xırda gerb)PATRONVS*  WIERTEN
2. 2 ədəd gerbli qalxan və yazılar: PHS*BAR D MONTM C  AB(?) (ornament) H(?)ORN D*  WIERT



**NF 27173. Gümüş ağça.** Osmanlılar. II Murad bin Mehmet (824 – 848 = 1421 – 1444; 850 – 855 = 1446 - 1451), Serez, hicri 834 = 1430-1431, 1,1 q. Tapılma ili və yeri: 1953-cü il, Bərdə şəhəri (Пахомов Е.А. Монетные клады Азербайджана и других республик, краев и областей Кавказа. Вып. VIII, Баку, 1959, с. 34).
1. Ərəbcə yazılar: “Serezdə zərb edilib”, “834”, ətrafında nöqtəvari möhür.
2. Ərəbcə yazılar: “Murad”, “Muhamməd xan”, ətrafında nöqtəvari möhür.



**NF 5798. Gümüş abbası.** Osmanlılar. III Əhməd (1703-1730) Rəvan, hicri 1115 = 1703-1704, 2,6 q. Tapılma ili və yeri: 1955-ci il, Mardakert (Ağdərə) rayonunun Atyork kəndi. Пахомов Е.А. Монетные клады Азербайджана и других республик, краев и областей Кавказа. Вып. VIII, Баку, 1959, с. 24 - 25
1.Sultan Əhmədin tuğrası, ondan aşağıda ərəbcə yazılar: “Rəvanda zərb edilib”, “1115”.
2. Ərəbcə yazılar: “Qurunun sultanı, dənizin xaqanı, sultan oğlu sultan ”.



**NF 28056. Gümüş abbası.** Baburilər. Aurəngzib (1618 - 1707),, Atava, hicri 1114 = 1702-1703, 11,4 q. Tapılma ili və yeri: 1924-cü il, Xocavənd rayonu, Tuğ kəndi (Пахомов Е.А. Монетные клады Азербайджана и других республик, краев и областей Кавказа. Вып. II, Баку, 1938, с. 56).
1. Ərəbcə yazılar: "aləm... Aurəngzib 1114"...
2. Ərəbcə yazılar: "culus, 47-ci il, Atava" ...



**NF 3515 Gümüş rupiyə.** Baburilər, Muhammed (1719-1748), Atava, 9,9 q. Tapılma ili və yeri: 1924-cü il, Dizaxlı (Xocavənd) rayonu, Tuğ kəndi. Пахомов Е.А. Монетные клады Азербайджана и других республик, краев и областей Кавказа. Вып. II, Баку, 1938, с. 56
1. Yazılar silinib.
2. Ərəbcə yazılar: "Muhəmməd", "şah", "Atava".



**NF 48412. Gümüş şahi.** Əfşarlar. Nadir, Məşhəd, hicri 1150 = 1737-1738, 6,62 q. Tapılma ili və yeri: 1934-ci il, Karyagin (Füzuli) rayonu. Tapılma ili və yeri: 1934-ci il, Karyagin (Füzuli) rayonu (Пахомов Е.А. Монетные клады Азербайджана и других республик, краев и областей Кавказа. Вып. II, Баку, 1938, с. 56).
1. Ərəbcə yazılar: "sultan Nadir", ətrafında nöqtəvari möhür.
2. Ərəbcə yazılar: "Allah hakimiyyətini davamlı etsin!", "Məşhəd"də zərb edilib", "1150", ətrafında nöqtəvari möhür.



**NF 1451. Gəncə xanlığı.** Mis fels, 10,4 q (sağa yönəlmiş pələng təsviri). Tapılma ili və yeri: 1929-cu il, Bərdə rayonu. (Пахомов Е.А. Монетные клады Азербайджана и других республик, краев и областей Кавказа. Вып. II, Баку, 1938, с. 59).
1. Sağa yönəlmiş pələng.
2. Ərəbcə yazılar: "Gəncə fulusu".



**NF 1450. Mis qazbəyi.** Gəncə xanlığı. Hicri 113(2) = 1719-1720, 10,2 q (at təsviri ilə). Tapılma ili və yeri: 1935-ci il, Ağdam rayonu. Пахомов Е.А. Монетные клады Азербайджана и других республик, краев и областей Кавказа. Вып. III, Баку, 1940, с. 60

1. Sola yönəlmiş at.
2. Ərəbcə yazılar: “fulus Gəncə”, “1132”.



**NF 45692. Gümüş abbası.** Şirvan xanlığı. Şamaxı, hicri 1201 = 1786-1787, 2,5 q. Tapılma ili və yeri: 1939-cu il, Tərtər rayonu, Bəyim Sarov kəndi (Пахомов Е.А. Монетные клады Азербайджана и других республик, краев и областей Кавказа. Вып. IV, Баку, 1949, с. 78-79).

1.Ərəbcə yazı: “Şamaxıda zərb edilib”, “1201”.
2. Ərəbcə yazılar: “Ya sahib əz-zaman!”.



**NF 56315. Gümüş abbası.** Gəncə xanlığı. Gəncə, hicri 1204 = 1789-1790, 3,11 q. Tapılma ili və yeri: 1939-cu il, Tərtər rayonu, Bəyim Sarov kəndi (Пахомов Е.А. Монетные клады Азербайджана и других республик, краев и областей Кавказа. Вып. IV, Баку, 1949, с. 78-79).
1.Ərəbcə yazı: “Allahdan başqa ilah yoxdur, Muhəmməd Allahın elçisidir, Əli Allahın yaxınıdır”.
2. Ərəbcə yazılar: “Gəncədə zərb edilib”, “1204”.



**NF 32232. Gümüş abbası.** Şirvan xanlığı. Hicri 1204 = 1789-1790, 2,4 q. Tapılma ili və yeri: 1939-cu il, Hadrud rayonu Traktik kəndi (Пахомов Е.А. Монетные клады Азербайджана и других республик, краев и областей Кавказа. Вып. V, Баку, 1949, с. 43-44).
1.Ərəbcə yazı: “Ya sahib əz-zəman!”, ətrafında naxışlar.
2. Ərəbcə yazılar: “Şamaxıda zərb edilib”, “1204”, ətrafında nöqtəvari möhür.



**NF 19605. Gümüş pəhabadi.** Qarabağ xanlığı. Pənahabad, hicri 1209 = 1794/1795, 1,9 q. Tapılma ili və yeri: 1939-cu il, Hadrud rayonu Traktik kəndi (Пахомов Е.А. Монетные клады Азербайджана и других республик, краев и областей Кавказа. Вып. V, Баку, 1949, с. 43-44).
1.Ərəbcə yazı: "Pənahabadda zərb edilib", "1209".
2.Ərəbcə yazılar: "Allahdan başqa ilah yoxdur, Muhəmməd Allahın elçisidir, Əli Allahın yaxınıdır".



**NF 5210. Mis fels.** Qarabağ xanlığı. Pənahabad, Mis fels, 5,7 q, XVIII – XIX əsrlər (şir və Günəş, "fulus" sözü ilə), d=19 mm. Tapılma ili və yeri: 1954-cü il, Bərdə rayonu (Пахомов Е.А. Монетные клады Азербайджана и других республик, краев и областей Кавказа. Вып. , Баку, 19, с. ).
1.Sağa yönəlmiş şir və üzərində Günəş.
2.Ərəbcə yazılar: "Pənahabadda zərb edilmiş fels".



**NF 1227. Gümüş abbası.** Zəndilər. Hicri 1168 = 1754-1755, Təbriz, 4,6 q. Tapılma ili və yeri: 1939-cu il, Xankəndi rayonu, Kərkicahan kəndi. Пахомов Е.А. Монетные клады Азербайджана и других республик, краев и областей Кавказа. Вып. IV, Баку, 1949, с. 77
1. “Səltənət yeri Təbrizdə zərb edilib”, “1168”.
2. Farsca yazı: “Məhrəm Sahib əz-Zəmanın adı ilə kəramətli sahibqıran sikkəsi, Təbriz”.



**NF 1310. Qacarlar.** Nəsrəddin (1264 – 1313 = 1847 - 1895), gümüş qıran, 9,3 q. Tapılma ili və yeri: 1939-cu il, Xankəndi şəhəri. Пахомов Е.А. Монетные клады Азербайджана и других республик, краев и областей Кавказа. Вып. IV, Баку, 1949, с. 80
1.Sola yönəlmiş, əlində qılınc tutmuş şir və üzərində Günəş, yuxarıda tac, ətrafında budaqlar.
2.Ərəbcə yazılar: “Nəsrəddin şah Qacar, sahibqıran, əl-sultan”.

### *İstifadə edilmiş ədəbiyyat*


1. Məmmədova A.M., Qasımov A.A. 2015-2018-ci illərdə Bərdədə arxeoloji qazıntılar nəticəsində aşkarlanan numizmatik tapıntılar // “Tarix. İnsan.Cəmiyyət”, Bakı: ADPU, 2023, s. 3 - 12.
2. Rəcəbli Ə.M. Şirvanşahlar dövlətində sikkə zərbi (VIII – XVI yüzillər). Bakı: 2015, 240 s.
3. Rəcəbli Ə.M. Qaraqoyunlu və Ağqoyunlu sikkələri. Bakı: 2019, 119 s.
4. Rəcəbli Ə.M. Sikkə dəfinələrinin izi ilə. Bakı: Ecoprint, 2020, 359 s.
5. Маммадова А., Наджафова И., Раджабли А. К вопросу о коллекции монет Октавиана Августа в Национальном Музее Истории Азербайджана // Nuntia vetustatis (памяти Ии Леодиновны Маяк). Сборник научных статей. С.П., Алетеййа, 2021, с. 76 - 85
6. Пахомов Е.А. Монетные клады Азербайджана и других республик, краев и областей Кавказа. Вып. I, Баку, 1926, 68 с.
7. Пахомов Е.А. Монетные клады Азербайджана и других республик, краев и областей Кавказа. Вып. II, Баку, 1938, 34 с.
8. Пахомов Е.А. Монетные клады Азербайджана и других республик, краев и областей Кавказа. Вып. III, Баку, 1940, 42 с.
9. Пахомов Е.А. Монетные клады Азербайджана и других республик, краев и областей Кавказа. Вып. IV, Баку, 1949, 70 с.
10. Пахомов Е.А. Монетные клады Азербайджана и других республик, краев и областей Кавказа. Вып. V, Баку, 1949, 44 с.
11. Пахомов Е.А. Монетные клады Азербайджана и других республик, краев и областей Кавказа. Вып. VI, Баку, 1954, 64 с.
12. Пахомов Е.А. Монетные клады Азербайджана и других республик, краев и областей Кавказа. Вып. VII, Баку, 1957, 67 с.
13. Пахомов Е.А. Монетные клады Азербайджана и других республик, краев и областей Кавказа. Вып. VIII, Баку, 1959, 46 с.
14. Пахомов Е.А. Монетные клады Азербайджана и других республик, краев и областей Кавказа. Вып. IX, Баку, 1966, 109 с.
15. Рагимов А.В. Клад серебряных монет XVII - XVIII вв.// Доклады. Том VIII,Отд.оттиск. Баку, Изд. АН АССР, 1952, с. 143 - 149
16. Раджабли А.М. Монетное дело азербайджанского государства Сефевидов. Баку: Зия, 2014, 232 с.
17. Сейфеддини М.А. Средневековые монетные клады Азербайджана (1968 - 1983). Баку: Элм, 1994, 196 с.

# QEYDLƏR

Dizayner: ***Lalə Məmmədova***